İlkin Əbəlfəz

# Payız ayrılığın ikinci adıdır

qanun nəşriyyatı

**İlkin Əbəlfəz. Payız ayrılığın ikinci adıdır**
Bakı, Qanun Nəşriyyatı, 2023,  176 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 20.12.2023

| | |
|---|---|
| Redaktor və korrektor: | Elsevər Muradov |
| Mətn dizaynı: | Aytac Abdul |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-855-8

© Qanun Nəşriyyatı, 2023
© İlkin Əbəlfəz, 2023

## ÖN SÖZ

Əvvəla, hər kəsi salamlayıram. Bu kitabı əlinə alıb oxuyana da, oxumayana da – hər kəsə minnətdarlığımı bildirirəm. Sizlərin fikir və sevginizdən ilhamlanıb ilk addımımı atmış oluram. Buna görə sizə “Çox sağ olun” deyirəm!

Çoxdandır arzusunda, bəlkə də, həsrətində olduğum bir amalımı gerçəkləşdirmək üzrəyəm. Həmişə hansısa yazarın “ön söz”lərini oxuyanda “qismət olacaqmı bir gün mən də öz kitabıma ön söz yazım?” deyə düşünürdüm. Necə deyərlər, o gün bu gün imiş... Düz otuz dörd ildən sonra bu gücü özümdə tapıb sizlərlə kitab vasitəsilə görüşə gəlirəm.

İlk öncə onu deyim ki, mən kitab nəşrini uşaq dünyaya gətirməyə bənzədirəm: əvvəlcə uşağın olmasını həsrətlə gözləyərsən – üç il, beş il. Sonra uşağın olacağı xəbərini alarsan. İndi də sancılarla, həyəcan və müdhiş ürək döyüntüləri ilə onun dünyaya gəlişini gözləyərsən. Və sonda nur kimi bir uşaq dünyaya gətirərsən. Bir yazar üçün ilk kitabın nəşri, məhz, bu prosesə bənzəyir. Mən indi ilk övladım olan “Payız ayrılığın ikinci adıdır” kitabımı dünyaya gətirirəm. Bu isə, bilidiyiniz kimi, heç də asan məsələ deyil.

Qələmimi hələ məktəb illərində ikən sınaqdan keçirmişəm. Yadımdadır ki, o vaxt bir şeir dəftərim var idi; uşaq və yeniyetmə təfəkkürü ilə yazılmış şeirlər. O dəftər hələ dünənə qədər əlimin altında idi. Təbii ki, ilk görüşü-

müzdəcə o şeirləri sizinlə paylaşmaram... Amma nə bilmək olar, bəlkə gələcəkdə içindən ən yaxşılarını seçib sizə təqdim etdim.

İlk şeirimi isə (təxminən 2001–2002-ci illər idi) indiyə qədər yadımdadır ki, hansı vəziyyətdə yazmışdım: sınıq-salxaq rayon avtobusu, bütün oturacaqlar dolu, ailəmizlə Gəncədən Daşkəsənə gedirik. Qardaşım onda uşaq idi (məndən səkkiz yaş balacadır), başını dizlərimə qoyaraq yatmışdı. Yol boyu onun saçını oxşayaraq, sevərək "Qardaş" şeirimi beynimdə canlandırmışdım. Avtobusdan düşən kimi ilk işim şeiri kağıza köçürmək olmuşdu...

Bir daha bu kitabımı yazıb ərsəyə gətirə bildiyimə görə öncə Allahıma (O, mənə ilham verdi ki, mən qəlbimdə olanları vərəqlərə köçürə bilim), sonra valideynlərimə, bacıma, qardaşıma, məni ilhamlandıran, sevən hər kəsə, sizlərə təşəkkür edirəm. Bir yazar üçün ən önəmli amil oxucu rəyi imiş!.. Bu, həmin yazara əlavə motivasiya verir. Sizin təklif və istəkləriniz, irad və fikirləriniz də mənim üçün çox önəmlidir: onları "dördgözlə" gözləyirəm və bunun sayəsində ikinci kitabımın nəşrinə hazırlaşıram. Hər bir təklif və iradınızı email adresimə (ilkinebelfez89@gmail.com) ünvanlaya bilərsiniz. İkinci kitabımda onlar da nəşr olunacaqdır.

Allaha əmanər olun!

İkinci görüşümüzədək...

İlkin Əbəlfəz

# Şeirlər

## QARDAŞ

***(İlk şeirim. Başını dizimin üstünə qoyub yatmışdı. Avtobusla uzaq yol gedirdik. Saçını oxşayıb, üzünə baxa-baxa bu misraları yazdım. Allah səni qorusun!)***

Hörmət elə sən elinə,
Kİ dastan ol dildən-dilə,
Hörmətinlə, şöhrətinlə
Ucal, ucal sən, ey qardaş!

Evimizin ən kiçiyi,
Olacaqsan bəylər bəyi,
Anamızın haqq diləyi,
Allah qoysa, olar, qardaş!

Evimizin ərköyünü,
Bir dəfə de sən sözünü,
Gəl zəhmətə tut üzünü,
Zəhmət ilə ucal, qardaş!

***2001/2002-ci illər***

## BİR CÜT QOŞA PƏNCƏRƏ

Bir cüt qoşa pəncərə:
Ömrümün ən şirin xatirələrinə
Şahidlik etdiyi həmin illəri
Yenə də qaytarın, nə olar, mənə.

Bir cüt qoşa pəncərə:
Yanan işıqları, dümağ pərdəsi.
Hərdən şüşələri buxarlanardı,
Külək hərarəti, yarın nəfəsi.

Bir cüt qoşa pəncərə:
Gəldiyim yollara hey boylanardı.
Hərdən toqquşanda baxışlarımız
Könlümüz bir qutək qanadlanardı.

Bir cüt qoşa pəncərə:
Gülüb əl eləyir uzaqdan mənə.
İşığı sönməsin həmin otağın,
Məni o otağa aparın yenə.

***2 avqust, 2020***

## BİR MÖCÜZƏ GÖZLƏYİRƏM

Fikirlərim darmadağın,
Qalaqlanıb yığın-yığın,
Sis-dumandı solum, sağım,
Bir möcüzə gözləyirəm,
Burdan çıxmaq istəyirəm…

Baxışlarım zillənibdi,
Bilməm hara köklənibdi,
Bəbəklərim sellənibdi,
Bir möcüzə gözləyirəm,
Mən ovunmaq istəyirəm…

Yadımdadır xəyallarım,
Puça dönən arzularım,
Məni yıxdı günahlarım,
Bir möcüzə gözləyirəm,
Təmizlənmək istəyirəm…

Xəyallarım kağız gəmi,
Nəmləndirib suyun nəmi,
Mənə gəlib eşqin dəmi…

Heç bilmirəm hara gedim,
Nəyi seçim, nəyi edim,
Harda itdim, harda bitdim,
Hansı yolda günah etdim?!

Keçmişimi varaq-varaq
Bir kağıza toplayaraq,
Lap astaca toxunaraq
Sənə deyim hər şeyimi,
Həm yaxşımı, həm pisimi?

Yox, söyləmək istəmirəm,
Səndən heç nə gözləmirəm.
Bircə güman gözləyirəm…
Mən yaşamaq istəyirəm!…
Mən yaşamaq istəyirəm!…

***6 avqust, 2020***

## MƏNƏ DEYİRLƏR Kİ…

Mənə deyirlər ki, niyə bədbinsən?
Niyə xoşbəxtlikdən yazmırsan axı?!
Bilmirəm nə deyim sual verənə
Ömrümün bu solğun, bu bahar çağı.

Mənə deyirlər ki, üzdən gülürsən,
Gözündə bir ahın nişanəsi var.
Hələ bilmirlər ki, qəlbimdə nə var,
Orda da bir eşqin divanəsi var.

Mənə deyirlər ki, kimdi sevgilin?
Bu sual həmişə sızladıb məni.
Daha demirlər ki, "nələr çəkmisən?"
Sevgisiz keçibdi ömrümün təni.

***8 avqust, 2020***

## ÜSYAN

Elə dərd verdi ki Allahım mənə,
Min ağrı bu dərdə bərabər oldu.
Gülən gözlərimin dərinliyində
Ömrüm selə döndü, dərbədər oldu.

Elə dərd verdi ki Allahım mənə,
Hər nəfəs aldıqca dağlanır içim.
Hər şəkil, hər dəfə adı gələndə
Ox olub sancılır, çağlayır qəlbim.

Elə dərd verdi ki Allahım mənə,
Bu dərdim ömürlük yoldaşım oldu.
Fərmanı verildi gələn günlərin,
Cəlladtək üstünə möhürün vurdu.

Elə dərd verdi ki Allahım mənə,
Dərd də özlüyündən utandı, vallah.
Daha yorulmuşam, daha ölürəm,
Məni öz yanına apar, ay Allah.

***15 avqust, 2020***

## ŞAİR BAXIŞLARIM NOLAR İTMƏSİN

Şair baxışlarım, şair xəyalım
Mən köçüb getməmiş, nolar, getməsin.
Mənim məhəbbətim, mənim qazancım,
Könlümdən bir haram sevgi keçməsin.

Bir vaxt gələcək ki, mən də gedəcəm,
Ya yaxşı gedəcəm, ya pis gedəcəm,
Vallah, gözüaçıq, əskik gedəcəm,
Kaş ki qələmimin izi itməsin.

Sənə nəyi qoyub, nəyi danışım,
Günaha güc gələn səyi danışım,
Qələmi səhv yazan "bəy"i danışım,
Tamahım tir olub gözdə bitməsin.

Şəhərin havası başqadır, Allah,
Mini min hoqqaya bürünür, vallah,
Qonşu qapısından çıxır sübh sabah,
Mərdin qapısından namərd girməsin.

Fikirlər qarışıq, fikirlər saxta,
Yalançı məmurlar oturub taxtda:
"İşiniz düzəlmir deyilən vaxta",
Yolum gədalara sarı düşməsin.

Qızıldan deyil ki, xəsislik edim,
Biliyi, savadı qiymətə deyim,
Beş manat nədir ki fitnəyə gedim,
Dərsimi savadsız, naşı verməsin.

Əbəlfəz aşiqi, yorma özünü,
Demisən, yenə də sən de sözünü,
Zalıma zalım ol, yumma gözünü,
Üstünə məzlumun ahı çökməsin.

***9 avqust, 2022***